TURKPA

PARLIAMENTARY ASSEMBLY OF TURKIC-SPEAKING COUNTRIES

**BEYNƏLXALQ ƏLAQƏLƏR KOMİSSİYASI**

**ÜÇÜNCÜ İCLAS**

**TÖVSİYYƏ QƏRARI**

**“TÜRKDİLLİ ÖLKƏLƏRİN BEYNƏLXALQ TƏŞKİLATLAR ÇƏRÇİVƏSİNDƏ QARŞILIQLI FƏALİYYƏTLƏRİ”**

1. TÜRKPA Türkdilli ölkələr arasında beynəlxalq təşkilatlar çərçivəsində çoxtərəfli əməkdaşlığın genişləndirilməsi və əlaqələrin inkişaf etdirilməsinə böyük önəm verir.
2. TÜRKPA beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı maraq doğuran müəyyən məsələlərdə üzv ölkələrin milli nümayəndə heyətləri arasında əlaqələrin inkişaf etdirilməsinin onun əsas məqsədlərindən biri olduğunu təsdiq edir.
3. TÜRKPA beynəlxalq təşkilatlar çərçivəsində üzv ölkələrin birgə fəaliyyətlərinin Türkdilli Ölkələrin Parlament Assambleyasının İstanbul Anlaşmasında əks olunmuş parlamentlərarası əməkdaşlığın gücləndirilməsi və inkişaf etdirilməsi ilə bağlı məqsəd və vəzifələri ilə üst üstə düşdüyünü ifadə edir.
4. TÜRKPA Türkdilli ölkələrin beynəlxalq təşkilatlarla və beynəlxalq təşkilatlar çərçivəsində iqtisadi, siyasi və mədəni əməkdaşlıq sahəsində bir model formalaşdırmaq zərurəti ilə bağlı Komissiyanın ilk tövsiyyə qərarını xatırladır.
5. TÜRKPA beynəlxalq təşkilatlar çərçivəsində Türkdilli ölkələrin birgə fəaliyyətlərinin əhəmiyyətini vurğulayan Türk Şurasının və əvvəlki Zirvə toplantılarının bəyannamələrinə dəstəyini ifadə edir. Bu baxımdan

Assambleya üzv ölkələrin Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə toplantısı Naxçıvan Bəyannaməsinin, Türkdilli ölkələrin dövlət başçılarının X zirvə toplantısı İstanbul Bəyannaməsinin, Türk Şurasının Birinci Zirvə toplantısının Almatı Bəyannaməsinin, İkinci Zirvə toplantısının Bişkek Bəyannaməsinin və Üçüncü Zirvə toplantısının Qəbələ Bəyannaməsinin müddəalarına bağlılığını bir daha təsdiq edir.

6. TÜRKPA Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində əks etdirilən beynəlxalq norma və prinsiplərinə, həmçinin, suveren bərabərliyi, ərazi bütövlüyü, dövlət sərhədlərinin pozulmazlığı, bir-birinin daxili işlərinə qarışmamaq, zor işlətməmək və zor işlədəcəyi ilə hədələməmək kimi beynəlxalq hüququn digər hamılıqla qəbul olunan norma və prinsiplərinə öz sadiqliyini bir daha təsdiq edir.
7. TÜRKPA hesab edir ki, beynəlxalq təşkilatlar çərçivəsində üzv ölkələrin institusional qarşılıqlı fəaliyyəti beynəlxalq təşkilatlarla və digər ölkələrlə uzunmüddətli əlaqələrin həyata keçirilməsinə təkan verəcək, eyni zamanda Türk əməkdaşlıq institutlarının görünümünün artırılmasını təmin edəcəkdir.
8. Assambleya beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın gücləndirilməsi məqsədilə üzv parlamentlərə aşağıdakı tədbirlərin həyata keçirilməsini tövsiyyə edir:

i) əsas beynəlxalq təşkilatlarda təmsil olunan TÜRKPA üzv ölkələri parlament nümayəndə heyətləri arasında müntəzəm əlaqə yaratmaq və gündəlik baş verən proseslərlə bağlı informasiya mübadiləsini asanlaşdırmaq məqsədilə *əlaqə saxlamaq;*

ii) su və enerji resursları, ticarət və investisiya, humanitar və sosial məsələlər, eləcə də narkotik və insan alveri və dini ekstremizmə qarşı mübarizə kimi məsələlərə effektiv və nəticə yönümlü yanaşmaları *inkişaf etdirmək;*

iii) beynəlxalq maliyyə təşkilatları vasitəsi ilə üzv ölkələrin dövlət borclarına yenidən baxılması və silinməsi kimi məsələlərlə bağlı TÜRKPA üzvlərinin əlaqələndirilmiş fəaliyyətlərini *dəstəkləmək;*

iv) parlamentlərarası təşkilatların tədbirləri zamanı üzv ölkələrin milli nümayəndə heyətləri arasında tanışlıq yaratmaq və qarşılıqlı maraq kəsb edən müəyyən məsələləri müzakirə etmək üçün TÜRKPA üzv

ölkələri milli nümayəndə heyətləri arasında müntəzəm qaydada birgə *görüşlər keçirmək*;

v) üzv ölkələrin daxili siyasətinin aktual məsələləri üzrə bu vəya digər məsələ ilə əlaqədar ölkənin rəsmi mövqeyi ilə bağlı dəqiq informasiya almaq məqsədi ilə TÜRKPA Katibliyi vasitəsilə məlumat *mübadiləsi aparmaq*;

*vi)* beynəlxalq təşkilatların fəaliyyətində onların da gələcək iştirakı ilə Türkmənistan və Özbəkistanla əlaqələrin inkişaf etdirilməsi istiqamətində davamlı bir yanaşma *axtarmaq*;

*vii)* hökumətlərarası təşkilatlar çərçivəsində Türkdilli ölkələrin qarşılıqlı fəaliyyətinə dair məlumatın əldə edilməsi məsələlərində Türk Şurası ilə əlaqələri genişləndirmək və bununla bağlı parlament kanalları vasitəsilə bu prosesə *yardım etmək*;

viii) qarşılıqlı maraq kəsb edən maddələrin beynəlxalq təşkilatların gündəliyinə salınmasında üzv ölkələrin milli nümayəndə heyətlərini razılığa gəlmələri üçün təşviq etmək, eyni zamanda müvafiq beynəlxalq təşkilatlarda təmsil olunan üzv ölkələrin nümayəndə heyətləri rəhbərləri arasında müntəzəm məsləhətləşmələr *təşkil etmək*;

ix) üzv ölkələrin parlamentlərini aşağıdakı beynəlxalq parlament instututları çərçivəsində qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirməyə *təşviq etmək*:

Beynəlxalq Parlamentlərarası İttifaq (BPİ)

a) Beynəlxalq Parlamentlərarası İttifaqın qlobal parlamentlər çərçivəsində birgə fəaliyyət, qarşılıqlı fəaliyyət və koordinasiya imkanlarını müzakirə etmək üçün BPİ-nin Assambleyaları zamanı üzv ölkələrin nümayəvdə heyətlərinin müntəzəm panel görüşlərinin *təşkil edilməsi*;
b) üzv ölkələri və onların təmsilcilərini BPİ-nin əsas orqanları olan İdarəetmə Şurası, İcraedici Komitə, Komitələr, İşçi Qrupları və Geopolitik Qruplarda iştiraka *təşviq etmək*;

c) üzv ölkələrin fərdi namizədlərinin BPİ-də rəsmi vəzifələrə seçilməsinə və üzv ölkələrin BPİ-nin əsas tədbirlərinə ev sahibliyi etməsinə birgə *dəstək vermək*;

İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı (İƏT Pİ)

a) üzv ölkələrin İƏT Pİ-nin fəliyyətində daha aktiv iştirak etməsinə dəstək vermək və İƏT Pİ çərçivəsində qarşılıqlı dəstək və işbirliyi fəaliyyətləri əsasında əməkdaşlığı *gücləndirmək*;
b) Türkdilli ölkələr tərəfindən İƏT Pİ-nin əsas orqanları olan Baş Komitə, İcraedici Komitə və İxtisaslaşdırılmış Daimi Komitələrə irəli sürülən namizədlərə birgə dəstək verilməsini *təmin etmək*;
c) İƏT Pİ-nin İxtisaslaşdırılmış Daimi Komitələrinin qətnamələri ilə bağlı onların qəbul olunmasında birgə münasibəti formalaşdırmaq məqsədi ilə birgə məsləhətləşmələr *təşkil etmək*;
d) Türkdilli ölkələr və İslam Əməkdaşlığının əlaqədar institutları arasında əməkdaşlığın inkişaf etdirilməsinə parlament səviyyəyində *töhfə vermək*;

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı Parlament Assambleyası (ATƏT PA)

a) ATƏT PA-da vəzifəli şəxslərin seçimi zamanı birgə fəaliyyətləri *həyata keçirtmək*;
b) qarşılıqlı maraq kəsb edən maddələrin İllik Sessiyaların gündəliyinə daxil edilməsi məqsədi ilə ATƏT PA-nın İllik Sessiyalarının gündəliyinin hazırlanmasında səyləri *birləşdirmək*;
c) ATƏT PA-nın qətnamə layihələrinə TÜRKPA üzv ölkələrinin biri tərəfindən təqdim edilmiş əlavə və düzəlişlərin dəstəklənməsi məqsədilə milli nümayəndə heyətlərini səylərini birləşdirməyə *təşviq etmək*;
d) üzv ölkələrin milli nümayəndə heyətləri arasında ATƏT PA-nın bəzi prosessual məsələləri ilə bağlı müntəzəm məsləhətləşmələr *keçirmək*;